

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 129 (21.030)

9 iyul 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayı qəbul etmişdir.

NATO ilə Azərbaycan arasında əlaqələri yüksək qiymətləndirən Alyansın Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay uğurlu əməkdaşlığa, xüsusilə Azərbaycan sülhməramlılarının Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfəyə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı NATO baş qərargahına son səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırladı, Azərbaycan ilə NATO arasında əlaqələrin razılıq doğurduğunu bildirdi, əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu qeyd etdi.

Görüşdə Azərbaycan ilə NATO arasında həyata keçirilən layihələr, əlaqələrimizin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.



## "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Abutalıbov Tofiq Abutalıb oğlu
Babayev Telman Hüseyn oğlu
Babayev Tofiq Süleyman oğlu
Hüseynov İntiqam Yavər oğlu
İbrahimov Nuraləm Məmməd oğlu
Qəhrəmanov İlham Hüsü oğlu
Məmmədov İntiqam Əsgər oğlu
Zamanov Cavid Məhərrəm oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 iyul 2014-cü il*

## Naxçıvan şəhərində yeni yaşayış binası istifadəyə verilmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bu gün Azərbaycan inamla, uğurla inkişaf edir. Biz, Heydər Əliyevin davamçıları onun siyasi xəttinə sadiqik. Azərbaycan bu yolla gedir... Ölkəmizin bugünkü reallıqları, bugünkü vəziyyəti bu yolun nə qədər düzgün olmasını əyani şəkildə sübut edir".***

Ötən əsrin 70-ci illərindən başlanan Heydər Əliyev siyasi xətti Naxçıvan Muxtar Respublikasını da inkişaf və tərəqqi yoluna çıxarmışdır. Artıq muxtariyyətinin 90 yaşını qeyd edən qədim Naxçıvan iqtisadi və mədəni yüksəliş mərhələsinə qədəm qoymuşdur. Bu gün Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni sosial obyektlər, inzibati və yaşayış binaları tikilərək istifadəyə verilir, əhalinin rifahı və məişət şəraiti yaxşılaşdırılır.





İyulun 8-də – ulu öndərimizin Azərbaycanda ali hakimiyyətə gəlməsinin 45-ci ildönümü ərəfəsində Naxçıvan şəhərində yeni yaşayış binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov tədbirdə çıxış edərək demişdir ki, son illər şəhərin küçə və meydanları, park və xiyabanları yenidən qurulmuş, yeni sosial obyektlər, inzibati binalar tikilərək istifadəyə verilmişdir. Naxçıvan şəhərində mənzil tikintisi günbəgün genişlənir, müasir yaşayış kompleksləri tikilir. Cari ilin ötən dövründə Naxçıvan şəhərində yeni yaşayış kompleksi istifadəyə verilmiş, 80 ailə mənzillə təmin olunmuşdur. Hazırda şəhərin müxtəlif küçələrində çoxmərtəbəli yeni yaşayış binalarının tikintisi, 6 binada isə əsaslı təmir və yenidənqurma işləri davam etdirilir.

Bina sakini Sadiq Qasımov yeni mənzillə təmin olunmalarını insan amilinə verilən qiymət kimi dəyərləndirmiş, sakinlər adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərində növbəti yaşayış binasının istifadəyə verildiyini bildirmiş, sakinləri yeni mənzillərlə təmin olunmaları münasibətilə təbrik edərək demişdir: "Ölkəmizin uğurlu sosial-iqtisadi inkişafının nəticəsi olaraq yeni yollar və parklar salınır, sosial obyektlər, inzibati binalar və yaşayış massivləri tikilir. Tikinti-quruculuq işləri həyata keçirilərkən köhnə yaşayış binalarının sökülməsi zərurətə çevrilir. Lakin bunun müqabilində vətəndaşlar üçün daha müasir və rahat mənzillər tikilərək istifadəyə verilir. Bu gün istifadəyə verilən yaşayış binası da Naxçıvan şəhərinin müxtəlif məhəllələrində dövlət ehtiyacına görə evləri plana düşmüş sakinlər üçün nəzərdə tutulmuşdur".



Ali Məclisin Sədri demişdir: "Rahat mənzil sağlam yaşayış deməkdir. Yeni yaşayış binasındakı mənzillərdə insanların rahatlığı nəzərə alınmış, lazımi kommunal-məişət şəraiti yaradılmışdır. Sakinlər yaradılan bu şəraitdən düzgün istifadə etməli, tikilənlər qorunub saxlanılmalı, təmizliyə və səliqə-sahmana riayət olunmalıdır".

"Azərbaycanda quruculuq işlərinin əsası 1969-cu ilin 14 iyulunda qoyulmuşdur", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, ümummilli liderimiz Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ölkəmizin və xalqımızın həyatında yeni intibah mərhələsinin başlanğıcı olmuşdur. Həmin tarixdən etibarən Azərbaycan sürətli inkişaf yoluna qədəm qoymuşdur. Bu gün ulu öndərin yolunun ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda sosial-iqtisadi inkişaf təmin olunmuş, insanların yaşayışı və məişət şəraiti yaxşılaşdırılmışdır. Naxçıvan şəhərində istifadəyə verilən yaşayış binası da bu sahədə həyata keçirilən tədbirlərin tərkib hissəsidir.

Ali Məclisin Sədri sakinləri yeni mənzillərlə təmin olunmaları münasibətilə bir daha təbrik etmiş, onlara rahat həyat arzulamışdır.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini sakinlərə təqdim etmiş, açılışı bildirən lenti kəsmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 1 girişi olan bina 3 mərtəbə və 12 mənzildən ibarətdir. Mənzillərdən 10-u ikiotaqlı, 2-si isə 3 otaqlıdır. Binaya kommunikasiya xətləri çəkilmiş, mərkəzi antena sistemləri qurulmuş, mənzillər fərdi istilik sistemi ilə təmin olunmuşdur. İsti, soyuq və rütubətədavamlı izolyasiya qatına malik olan binanın həyətində də geniş abadlıq işləri aparılmış, yaşıllıqlar salınmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

***Bu il ölkəmizdə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi silsilə tədbirlərlə geniş qeyd olunur. Ümumi fikir belədir ki, həmin yubiley tədbirləri Azərbaycanda milli dövlətçilik təfəkkürünün, ərazi bütövlüyü düşüncəsinin daha da dərinləşdirilməsinə və möhkəmləndirilməsinə xidmət edir. Növbəti belə möhtəşəm tədbirlərdən biri də muxtar respublikamızda reallaşdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə dair Tədbirlər Planına əsasən, iyulun 4-5-də “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” mövzusunda keçirilən möhtəşəm beynəlxalq elmi konfrans muxtariyyətin əldə edilməsinin tarixi əhəmiyyətinin göstəricisidir.***

# Naxçıvanda keçirilən beynəlxalq konfrans möhtəşəm və yaddaqalan olmuşdur

Beynəlxalq konfrans tarix boyu Azərbaycana ərazi iddiaları irəli sürən düşmənə və onun arxasında dayanan şovinist dairələrə elmi şəkildə əsaslandırılmış tutarlı cavab oldu. Beynəlxalq konfransda geniş məzmunlu nitq söyləyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qeyd etdiyi kimi, arxiv materialları aydın şəkildə göstərir ki, Naxçıvana muxtariyyət verilməmişdir, əksinə, naxçıvanlılar bu muxtariyyəti qazanmışdılar. Naxçıvanın muxtariyyəti ermənilərə qarşı silahlı mübarizə cəbhəsində qazanıldığı kimi, böyük dövlətlərin siyasi oyunlarına qarşı diplomatik mübarizə cəbhəsində də qazanılmışdır.

Çıxışında konkret tarixi faktlara əsaslanan Ali Məclisin Sədri qeyd etmişdir ki, 1920-ci illərdə Behbud ağa Şahtaxtinski Sovet Rusiyası rəhbərliyi ilə iş aparır və bolşevik Rusiyasının rəhbəri Vladimir Leninə “Naxçıvanın Ermənistana verilməsi xalqın özünütəyin prinsipini və Sovet Azərbaycanının hüquqlarını pozur”, – deyirdisə, Tiflisdəki Amerika generalı Haskelə Naxçıvanın, Şərur-Dərələyəzin və Vedibasarın Azərbaycanın ayrılmaz hissəsi olduğunu əsaslandıran Əli Səbri Qasımov “Naxçıvanın və digər regionların əhalisi bu ərazilərin erməni hökumətinə verilməsinə necə baxar?” sualına “Əldə silah ləyaqətli ölümü üstün tutaraq bu hökuməti var-qüvvələri ilə rədd edərlər” cavabını vermişdir.

Qəbul edək ki, Naxçıvanın düşmən hücumuna məruz qaldığı, insanların erməni quldur dəstələri tərəfindən kütləvi şəkildə qətlə yetirildiyi, yerli müqavimət dəstələrinin ölüm-dirim mübarizəsi apardığı həmin dövrdə bu şəkildə konkret və sərt cavab vermək həm şəxsi cəsarətin, daxili sağlam düşüncənin, həm də çevik, üstün diplomatik bacarığın göstəricisi idi. Bu mənada Behbud ağa Şahtaxtinski, Əli Səbri Qasımov kimi diplomatlarımız və silahlı mübarizədə döyüşən həmyerlilərimiz hər zaman böyük hörmətlə, ehtiramla yad edilir, onların xatirələri əziz tutulur.

Bütün bu reallıqları 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi də, bolşevik işğalından sonra ölkəmizdə yaradılan şura hökumətinin nümayəndələri də yaxşı bilirdilər. Məsələn, AXC-nin baş naziri Nəsib bəy Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında erməni istilaçılarına qarşı Naxçıvanda aparılan müqavimət hərəkatı barədə demişdir: “Naxçıvan öz qüvvəsi ilə istilaçıları devirərək Azərbaycan ilə birləşməyə hazır olduğunu bildirmişdir”. Nəriman Nərimanov isə 1921-ci ilin mayında Beşinci Azərbaycan Sovetlər Qurultayındakı çıxışında Moskva müqaviləsinə hökumətin münasibətini bildirərək demişdir: “Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən, Naxçıvan Azərbaycanın protektoratlığı altında müstəqil respublika elan olundu. Orada bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik”. N.Nərimanovun çıxışında “Naxçıvana xidmət edəcəyik” sözlərini deməsi bir daha qədim diyara və onun cəsarətli, qətiyyətli, vətənsevər insanlarına göstərdiyi dərin hörmətin, ehtiramın ifadəsi idi.

Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, Türkiyə hökumətinin tutduğu ədalətli mövqe nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən Moskva və Qars müqavilələrinin imzalanması, bu sənədlər əsasında 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının təşkil olunması ilə birlikdə qədim diyarın təhlükəsizliyi və gələcək inkişafı da təmin edilmiş oldu.

“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” mövzusunda keçirilən Beynəlxalq Konfransda ***“Naxçıvanın ərazisi kimi, onun muxtariyyət statusu da zaman-zaman məkrli erməni həmlələrinə məruz qalmışdır”***, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, 1990-cı ilin iyul ayında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini işğaldan, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi. Bu illərdə xalqımızın böyük oğlunun muxtar respublika Ali Məclisində xüsusi bəyanatla çıxış etməsi, Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəmə gətirərək dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkar siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci ömür vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov onu da qeyd etmişdir ki, Naxçıvanın muxtariyyətini möhkəmləndirən mühüm amillərdən biri də, şübhəsiz, ötən 90 il ərzində burada gedən sosial-iqtisadi inkişafdır: ***“Bu gün ümummilli lider Heydər Əliyev tərəfindən başlanan, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən yeniləşmə və quruculuq xətti muxtar respublikada həyatın bütün sahələrini əhatə etmişdir. Qarşıda dayanan əsas vəzifə blokada vəziyyəti ilə bağlı yaranan çətinliyi aradan qaldırmaq, əhalinin məşğulluğunu təmin etmək, yeni infrastruktur, emal və sənaye sahələri yaratmaq, sosial sahələrin – təhsilin, mədəniyyətin, səhiyyənin və elmin daha da inkişaf etməsinə nail olmaqdır”.*** Bu, Azərbaycan dövlətinin, ölkə başçısı cənab İlham Əliyevin uğurlu siyasi xəttidir. Həmin siyasət Naxçıvan Muxtar Respublikasında böyük uğurla həyata keçirilir, Vətənə məhəbbətdən güc alan naxçıvanlılar qədim diyarda möcüzələr yaradırlar.

Beynəlxalq konfransda çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə də əhəmiyyətli məsələlərə toxunmuşdur. O qeyd etmişdir ki, Naxçıvan dünya sivilizasiyasının əsas mərkəzlərindən biridir. Bu torpağın yetirdiyi görkəmli şəxsiyyətlər Azərbaycanda dövlətçiliyin, ədəbiyyatın, mədəniyyətin, elmin, siyasi-ictimai fikrin inkişafında tarixən mühüm xidmətlər göstərmişlər. Son illərdə Azərbaycan Milli Elmlər Akademiyası institutlarının, xüsusən Naxçıvan Bölməsi alimlərinin apardıqları ardıcıl elmi axtarışlar Naxçıvanın tarixinin ən dərin qatlarının açılmasına zəmin yaratmışdır. Bu gün Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə, o cümlədən elmin inkişafı istiqamətində mühüm nailiyyətlər qazanılmışdır. Muxtar respublikanın 90 illiyinə həsr olunmuş elmi konfrans da bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” adlı Beynəlxalq Konfrans çox uğurla keçirilmişdir. İstər Azərbaycandan, istərsə də dünyanın müxtəlif ölkələrindən, o cümlədən Rusiyadan, Türkiyədən, ABŞ-dan gələn tarixçilərin ortaya qoyduqları əsaslı faktlar birmənalı şəkildə Naxçıvanın qədim Azərbaycan torpağı olduğunu bir daha təsdiq etdi. Naxçıvanın muxtariyyəti onun düşməndən müdafiəsi və Azərbaycanın tərkibində qalması üçün zəruri idi. Muxtar respublika rəhbərinin və ölkəmizin elmi ictimaiyyətinin aparıcı nümayəndələrinin bu tədbirdə iştirakı və çıxışları, həmin çıxışlarda ifadə olunan dərin məzmunlu, tarixi faktlara söykənən əsaslı fikirlər bu gün də, ümumilikdə, Azərbaycan dövləti ilə xalqımızın ümummilli məsələlərdə həmrəy olduğunu göstərməkdədir.

Beynəlxalq konfransda elmi əsaslara söykənərək səsləndirilən fikirləri, belə demək mümkünsə, Azərbaycandan və dünyanın bir sıra ölkələrindən olan alimlərin bəyanatı kimi qəbul etmək olar. Məsələyə siyasi tərəfdən yanaşsaq, bu konfrans həm də tarixi saxtalaşdırmaqda, qonşu ölkələrə torpaq iddiaları irəli sürməkdə “peşəkarlaşmış” ermənilərə növbəti xəbərdarlıq idi.

Onu da deyək ki, beynəlxalq konfransın plenar iclasının sonunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında Naxçıvan Muxtar Respublikasında elmin inkişaf etdirilməsi üzrə birgə əməkdaşlığa dair saziş imzalamışlar. Bu, Prezident cənab İlham Əliyevin həyata keçirdiyi elm, təhsil siyasətinin təntənəsi, dövlətimizin elmin inkişafına göstərdiyi böyük diqqətin bariz nümunəsidir.

Böyük əks-səda doğuran nüfuzlu beynəlxalq konfrans bir sıra məqamları ilə də diqqəti cəlb etdi. Birinci məqam nüfuzlu tədbirin muxtar respublikamızın Şahbuz rayonunda yerləşən ucqar Ağbulaq kəndində keçirilməsi idi. Bu, Azərbaycana düşmən kəsilən dairələrə çox ciddi bir mesaj idi. Belə ki, düşmənlə yaxın məsafədə möhtəşəm beynəlxalq tədbirin keçirilməsi, yuxarıda qeyd etdiyimiz kimi, həmin tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun, o cümlədən respublikamızın və dünyanın elmi elitasının seçilmiş, aparıcı nümayəndələrinin iştirakı Naxçıvanın təhlükəsizliyinin tam təmin edildiyinin ən bariz göstəricisi kimi qiymətləndirilə bilər. Bununla son vaxtlar qərəzli mövqedən çıxış edərək, guya, muxtar respublikamızın müdafiə qabiliyyətinin zəif təşkil olunduğu barədə əsassız fikirlər yaymağa çalışan dairələrin “arqumentləri” birmənalı şəkildə darmadağın edildi. Bir daha Naxçıvanın təhlükəsizliyinin tam təmin olunduğu konkret şəkildə aydın oldu.

Digər tərəfdən, “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” adlı Beynəlxalq Konfrans muxtar respublikanın ən ucqar yerində, dəniz səviyyəsindən 1700 metr yüksəklikdə keçirilmişdir. Təbii ki, mühüm bir beynəlxalq tədbirin keçirilməsi üçün infrastrukturun yüksək tələblərə cavab verməsi əsas şərtlərdən biridir. Əhəmiyyətli tədbirin məhz Naxçıvanın ən ucqar dağ kəndində keçirilməsi qədim diyarın hər bir guşəsində müasir infrastrukturun yaradıldığının, ən əsası isə onun ən yüksək tələblərə cavab verdiyinin göstəricisidir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə beynəlxalq konfransdakı çıxışında bu reallıqları belə ifadə etmişdir: “Hazırda müasir Naxçıvan dünyaya yeni intibahın nümunəsini göstərir. Burada olduğumuz iki gün ərzində Naxçıvanda gördüyümüz böyük inkişaf insanın qəlbini dağa döndərir. Hava limanından Naxçıvan şəhərinə, oradan da Ağbulaq zirvəsinə qədər uzanan abad yollar və bu yolların ətrafındakı tikinti, quruculuq, əkinçilik, bağçılıq regiondakı sistemli və ardıcıl bir inkişafın göstəriciləridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizin digər regionları ilə birlikdə Naxçıvan Muxtar Respublikasının da inkişafına göstərdiyi böyük qayğı burada yeni və böyük inkişafa təkan vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə regionda müşahidə olunan ciddi bir intizam, Naxçıvandakı milli ənənələrlə müasirliyin vəhdətindən yaranmış böyük inkişaf hər bir insanda milli iftixar hissi doğurur”.

*Reallaşdırılan uğurlu siyasətin nəticəsidir ki, bu gün Naxçıvan beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmişdir. Həmin tədbirlər sırasında “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” mövzusunda keçirilən Beynəlxalq Konfrans xüsusilə möhtəşəm və yaddaqalan olmuşdur.*

**Rauf ƏLİYEV**

# 14 iyul – Azərbaycanın həyatında dönüş günü

***Naxçıvan Dövlət Universitetində Heydər Əliyev Universitetinin “14 iyul – Azərbaycanın həyatında dönüş günü” mövzusunda 185-ci məşğələsi keçirilib.***



Məşğələni giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov 1969-cu il iyulun 14-də ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişinin ölkəmizin siyasi həyatında çox mühüm dönüş nöqtəsinə çevrildiyini diqqətə çatdırıb. Rektor bildirib ki, həmin dövrdə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsinin əhəmiyyətini, Azərbaycanın sonrakı mərhələdə əldə etdiyi uğurları qiymətləndirmək üçün öncə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişinə qədərki vəziyyətə nəzər salmaq lazımdır. Bu gün müstəqil, azad və dünyada söz sahibi olan Azərbaycan Respublikası əldə etdiyi sosial-iqtisadi uğurlarla nəinki bölgənin, hətta dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevrilib. Artıq ölkəmizin özünəməxsus sosial-iqtisadi inkişaf modeli əksər ölkələr tərəfindən nümunə kimi qəbul olunmaqdadır. Azərbaycanın bütün sahələrdə uğurlu inkişafından söz açan rektor ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan məqsədyönlü sosial-iqtisadi siyasətin hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

Məşğələdə “14 iyul – Azərbaycanın həyatında dönüş günü” mövzusunda məruzə ilə çıxış edən tarix üzrə fəlsəfə doktoru Vaqif Məmmədov 1969-cu ilin 14 iyul tarixinin Azərbaycan xalqının tarixində dönüş günü olduğunu vurğulayıb. Vaqif Məmmədov 45 il öncə ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə respublika iqtisadiyyatında, ictimai-siyasi həyatında köklü dəyişikliklər baş verdiyini diqqətə çatdırıb. Qeyd olunub ki, dahi şəxsiyyət Heydər Əliyev 1993-cü ildə xalqın çağırışı ilə Azərbaycanın idarəçilik sükanı arxasına keçərək növbəti dəfə xalqımızı ağır bəlalardan xilas edib.

**Mina QASIMOVA**

# AMEA-ya yeni seçilmiş həqiqi və müxbir üzvlərlə görüş keçirilib

***AMEA-ya seçilmiş həqiqi və müxbir üzvlərlə iyulun 8-də görüş keçirilib.***

Görüşdə çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev son dövrlərdə AMEA-da aparılan islahatlardan danışdı. Akademik qeyd etdi ki, bu il mart ayının 14-də Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən Sərəncamın imzalanmasından sonra bu islahatlar daha da genişlənib.

Daha sonra AMEA-ya həqiqi və müxbir üzvlərin seçimlərinin tarixinə qısa ekskurs edən İsmayıl Hacıyev Azərbaycan elmində naxçıvanlı alimlərin xüsusi rolu olduğunu vurğuladı. O, bu il iyun ayının 30-da keçirilən seçkilərdə Naxçıvandan AMEA-ya 1 nəfər həqiqi, 5 nəfər isə müxbir üzvün seçildiyini diqqətə çatdırdı. Naxçıvanda elmin inkişafından bəhs edən akademik İsmayıl Hacıyev bunun dövlət qayğısının nəticəsi olduğunu dedi və yaradılan şəraitə görə ölkə Prezidenti cənab İlham Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova elm ictimaiyyəti adından minnətdarlığını ifadə etdi.

Sonra keçirilən seçkilərdə uğur qazanan alimlər – AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, bölmənin Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov, Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Adil Bağırov çıxış edərək göstərilən etimada, elmin inkişafına yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər. Vurğulanıb ki, ölkə miqyasında elmi mühitin yenidən canlanması və elm sahəsinə diqqətin artırılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Naxçıvan Muxtar Respublikasında elmi-tədqiqat işlərinin inkişafında tarix və mədəniyyətimizə daim hörmət və ehtiramla yanaşan, bunu öz fəaliyyətində əsas istiqamətlərdən biri kimi diqqətdə saxlayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük rolu olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı bir sıra sərəncamlar, verdiyi tövsiyə və tapşırıqlar muxtar respublikada elmin, elmi-tədqiqat işlərinin inkişaf etdirilməsində əsas istiqamətverici dövlət sənədləri kimi mühüm əhəmiyyət kəsb edir.

Elm adamları seçimlərin onların məsuliyyətini daha da artırdığını ifadə edərək bundan sonra da səylə çalışacaqlarını bildirdilər.

**Elnur KƏLBİZADƏ**

*9 iyul Azərbaycan diplomatlarının peşə bayramıdır*

# Uğurlu xarici siyasət kursu güclü dövlətçiliyin qarantıdır

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 24 avqust tarixli Sərəncamına əsasən, 9 iyul "Azərbaycan diplomatlarının peşə bayramı" kimi təsis edilmişdir.*

Düzgün xarici siyasət kursu hər bir müstəqil dövlətin qarşısında duran başlıca vəzifələrdəndir. Ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Respublikasının xarici siyasət kursu ölkənin strateji maraqları əsasında yenidən qurulmuş, müstəqil dövlətimizin dünyada tanıdılması, onun beynəlxalq nüfuzunun artması və dünya birliyinə inteqrasiya olunması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə əlverişli beynəlxalq dəstəyin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Qısa müddətdə Azərbaycanın dünya dövlətləri ilə ikitərəfli münasibətləri yaradılmışdır. Azərbaycan Respublikasının xarici siyasətinin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirən ümummilli liderimiz deyirdi: ***"Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətidir. Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin..."***

Bu dövrdən etibarən müstəqillik və dövlətçilik mənafelərini qorumaq, bu sahədə qarşıya çıxan problemləri beynəlxalq aləmin dəstəyi ilə həll etmək üçün Azərbaycan diplomatiyası beynəlxalq və regional təşkilatlarla sıx əlaqələr yaratmaq, beynəlxalq hüquq normaları və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri ilə tənzimlənən böyük dünya siyasətinə qatılmaq sahəsində mühüm işlər görmüşdür. Xüsusən Birləşmiş Millətlər Təşkilatı, Avropa Birliyi, Avropa Şurası, ATƏT, MDB və digər beynəlxalq və regional təşkilatlarla ikitərəfli münasibətlər qurulmasının yeni yolları və vasitələri müəyyənləşdirilmiş və həyata keçirilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət kursu bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2003-cü ildən etibarən Azərbaycanın bütün sahələr üzrə dinamik inkişafını təmin edən dövlət başçısı milli diplomatiya sahəsində də ciddi və əhəmiyyətli uğurlara nail olmuşdur. Bu gün Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və milli təhlükəsizliyinə təhdidlərin aradan qaldırılmasını təmin etməklə regional səviyyədə əmin-amanlıq və sabitliyin bərqərar edilməsi, nəhəng nəqliyyat və əməkdaşlıq layihələrinin gerçəkləşdirilməsi kimi strateji məqsədlərə nail olmaq, ölkəmizin xarici dövlətlərlə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli əsasda bərabər və qarşılıqlı faydalı münasibətlərinin qurulub inkişaf etdirilməsi Azərbaycan diplomatiyasının qarşısında duran başlıca vəzifələrdəndir. Dövlət başçısının dediyi kimi: ***"Bizim diplomatiyamız çox çevik olmalıdır. Biz bölgədə və dünyada baş verən proseslərə çox operativ şəkildə reaksiya verməliyik. Azərbaycan artıq dünyada gedən proseslərin fəal iştirakçısıdır. Bir çox hallarda bölgə və Avropa üçün önəmli tədbirlərin təşəbbüskarıdır. Bölgədə Azərbaycanın mövqeyindən artıq çox şey asılıdır. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə – nə siyasi, nə iqtisadi, nə nəqliyyat, nə də başqa – həyata keçirilə bilməz..."***

Ölkəmizin Cənubi Qafqazda lider dövlətə çevrilməsi, transmilli enerji və kommunikasiya layihələrinin mərkəzi və təşəbbüskarı olması, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaması cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən uğurlu xarici siyasət kursunun bəhrələridir. 2011-ci ilin oktyabrında Azərbaycanın 155 ölkənin dəstəyini alaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və Təhlükəsizlik Şurasına sədrlik etməsi isə diplomatiyamızın növbəti təntənəsinə çevrilmişdir.

Bu gün dövlətimiz xarici siyasət sahəsində fəaliyyət göstərən diplomatların seçiminə xüsusi əhəmiyyət verir, onların bilik, bacarıq və peşə vərdişlərinin daim təkmilləşdirilməsinə ciddi səy göstərir. Diplomatik xidmətdə peşəkarlığın artırılması və layiqli kadrların işə cəlb olunması diqqət mərkəzində saxlanılan vacib məsələyə çevrilmişdir. Mövcud kadrların peşəkarlığının artırılması məqsədilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində təlim və ixtisasartırma kurslarının təşkil edilməsi intensiv hal almışdır. Bu sahədə qazanılmış ən böyük uğurlardan biri isə Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının yaradılması olmuşdur.

Azərbaycanda həyata keçirilən uğurlu xarici siyasi xətt Naxçıvan Muxtar Respublikasına da öz müsbət təsirini göstərmiş, muxtar respublikanın xarici əlaqələri genişlənmişdir. Bu gün muxtar respublika ilə əlaqə qurmaq istəyən dövlətlərin, beynəlxalq təşkilatların, həmçinin muxtar respublikaya səfər edən yüksək səviyyəli nümayəndə heyətlərinin sayı ildən-ilə artır, həyata keçirilən islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən digər dövlətlərə və onların muxtar qurumlarına nümunə kimi göstərilir. 2009-cu il oktyabrın 3-də Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşünün və 2012-ci ildə Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin üçtərəfli görüşünün, eləcə də türkdilli ölkələrin gömrük xidməti rəhbərlərinin görüşünün Naxçıvanda keçirilməsi muxtar respublikamızın həyatında əlamətdar hadisəyə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2012-ci ilin yanvar ayında Gürcüstanın Acarıstan Muxtar Respublikasında, may ayında isə Avstriyanın Ştiriya Federal Əyalətində işgüzar səfərdə olmuşdur. 2012-ci ilin iyun ayında Acarıstan Muxtar Respublikası nümayəndə heyəti və 2013-cü ilin fevralında isə Gürcüstan Respublikasının Prezidenti Naxçıvan Muxtar Respublikasına işgüzar səfərə gəlmişlər. Cari ilin 14-17 iyun tarixlərində Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti "Naxçıvan günləri"ndə iştirak etmək məqsədilə Polşa Respublikasının Krakov şəhərində səfərdə olmuşdur.

Naxçıvan Muxtar Respublikası özünün muxtar dövlət statusuna əsasən, Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində də təmsil olunur. Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresi vasitəsi ilə qitənin ayrı-ayrı regionları, muxtariyyətləri və federal subyektləri ilə birbaşa əlaqələr yaradan və səmərəli əməkdaşlıq edən muxtar respublika həm də Avropa siyasətinin formalaşması və həyata keçirilməsi prosesində yaxından iştirak edir. Bütün bunların nəticəsidir ki, 2012-ci ildə Fransanın Strasburq şəhərində Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 23-cü plenar sessiyasında ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının statusunu və sərhədlərini müəyyən edən Moskva və Qars müqavilələri beynəlxalq təşkilatların sənədlərində hazırda qüvvədə olan hüquqi sənəd kimi qiymətləndirilmişdir.

X əsrdə Naxçıvan şahlığının, XII əsrdə qüdrətli Atabəylər dövlətinin, XVIII əsrdə Naxçıvan xanlığının, 1918-ci ildə Araz-Türk Respublikasının paytaxtı olmuş beş min illik şəhər mədəniyyətinə malik Naxçıvan Azərbaycan dövlətçiliyinin, siyasi və diplomatik münasibətlər sisteminin formalaşmasına böyük töhfələr vermişdir. Naxçıvan xanlarından Heydərqulu xan, Abbasqulu xan və Cəfərqulu xan xanlığın xarici siyasətinə bilavasitə rəhbərlik etmiş, Kalbalı xan isə XVIII əsrin nüfuzlu siyasi lideri və diplomatı kimi məşhurlaşmışdır. Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyəti ilə birləşməsi üçün böyük səylər göstərən Araz-Türk Respublikasının xarici işlər naziri Bəhram xan Naxçıvanski, Naxçıvan SSR-in Təbrizdəki ilk konsulu – mühacir diplomat İsmayıl bəy Camalbəyov, mahir diplomat bacarığı ilə Moskva və Qars müqavilələrinin xalqımızın milli maraqlarına uyğun şəkildə bağlanmasında çox böyük xidməti olan Behbud ağa Şahtaxtinski, İbrahim Əbilov və Rza Təhmasib kimi görkəmli diplomatlar Naxçıvanın diplomatiya tarixində silinməz izlər buraxmış şəxslərdir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi öz fəaliyyətində Naxçıvanda tarixən mövcud olmuş zəngin diplomatiya təcrübələrinə söykənir. Bu gün idarədə peşəkar kadrların seçilməsinə və ixtisaslarının artırılmasına diqqət yetirilir. İdarədə çalışan əməkdaşlar mütəmadi olaraq Azərbaycan Diplomatik Akademiyasında və bir çox xarici ölkələrdə təşkil olunmuş diplomatik kurslarda iştirak edərək bilik və bacarıqlarını artırırlar. Hazırda Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikası İdarəsinin Sədərək, Culfa, Şahtaxtı və Naxçıvan Beynəlxalq Hava Limanı sərhəd-nəzarət buraxılış məntəqələrində viza sektorları fəaliyyət göstərir. İdarədə çalışmış 18 əməkdaş Azərbaycan Respublikasının Türkiyə, İran, Özbəkistan, İordaniya, Hindistan, Qazaxıstan, Malayziya və Bolqarıstandakı diplomatik nümayəndəlik və konsulluqlarında fəaliyyət göstərirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Diplomatiya sıravi peşələrdən deyil. O, xalqın milli və siyasi maraqlarına birbaşa təsir göstərən fəaliyyət sahəsidir. Yaxşı işlənmiş və əsaslandırılmış diplomatiyası olmayan dövlətlər siyasi səhnədən silinməyə məhkumdurlar..."*** Bu fikirləri rəhbər tutan idarənin kollektivi bundan sonra da ölkəmizin milli maraqlarının qorunmasında yorulmadan fəaliyyət göstərəcəkdir.

***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin mətbuat xidməti***

# Cari ilin ilk 6 ayının yekunları müzakirə edilir

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində 2014-cü ilin birinci yarısının yekunları ilə bağlı müşavirə keçirilmişdir.*



Tədbiri xidmətin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Fazil Ələkbərov açmışdır.

Qeyd olunmuşdur ki, cari ilin birinci yarısında muxtar respublika ərazisində qanunsuz və qeydiyyatsız olan, qanunsuz yaşayan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 147 nəfər əcnəbi vətəndaş aşkarlanmış, onlardan 60 nəfəri barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən, cərimə-inzibati tənbeh növü tətbiq edilmiş, 87 nəfər isə ölkə hüdudlarından kənara çıxarılmışdır. Bəhs edilən dövrdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlı xidmətə, ümumilikdə, 6911 müraciət daxil olmuşdur.

Xidmət rəisi əlavə etmişdir ki, cari ilin ilk 6 ayında qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə muxtar respublikanın rayonlarında əhali arasında maarifləndirici tədbirlər keçirilmiş, əcnəbilərin Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamasının, habelə əmək fəaliyyəti ilə məşğul olmasının əsasları və qaydaları əks olunmuş bukletlər paylanılmışdır.

Sonra tədbirdə xidmət əməkdaşlarından Şahin Nəbiyevin, Aysel Əliyevanın, İlqar Seyidovun, Zakir Məmmədovun və Samir Sadiqovun çıxışları olmuşdur.

*Ordubad Rayon İcra Hakimiyyətində 2014-cü ilin birinci yarısında Ordubad rayonunun sosial-iqtisadi inkişafının yekunları ilə bağlı müşavirə keçirilmişdir. İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov adıçəkilən mövzu ilə bağlı məruzə ilə çıxış etmişdir.*

İcra başçısı bildirmişdir ki, 2014-cü ilin ilk 6 ayında Ordubad rayonu üzrə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 28 milyon 548 min 900 manat və ya 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çox investisiya yönəldilmişdir. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 1,9 faiz artaraq 26 milyon 324 min 700 manat təşkil etmişdir.

Qeyd olunmuşdur ki, bəhs olunan dövrdə kənd təsərrüfatının inkişafı diqqət mərkəzində saxlanılmış, torpaq mülkiyyətçiləri tərəfindən 2147,9 hektar sahədə taxıl əkini aparılmışdır. Bu il 573 hektar sahədə kartof, 672 hektar sahədə tərəvəz bitkiləri əkilmişdir.

İcra başçısı müşavirə iştirakçılarının nəzərinə çatdırmışdır ki, tədrisin keyfiyyətinin yüksəldilməsi üçün məktəblərin maddi-texniki bazası gücləndirilmişdir. Belə ki, məktəblərdə elektron lövhələrin sayı 73, kompüterlərin sayı 434 olmuş, bunlardan 15 ədəd kompüter məktəb kitabxanalarında, 14 ədəd isə şahmat otaqlarında quraşdırılmışdır.

Vurğulanmışdır ki, 2014-cü ilin ilk 6 ayı ərzində quraşdırılması nəzərdə tutulan 165 obyektin hamısında nəzarət-kassa aparatlarının tətbiqi başa çatdırılmış, bank hesablarının aktivliyi, nağdsız hesablaşmaların aparılması diqqət mərkəzində saxlanılmış, 16 obyektdə POS-terminalların quraşdırılması təmin edilmişdir.



Rayonda səhiyyənin, mədəniyyətin inkişafı da hərtərəfli qayğı ilə əhatə olunmuşdur.

Bildirilmişdir ki, qazanılmış uğurlarla yanaşı, heç şübhəsiz ki, işdə bəzi nöqsanlar da buraxılmışdır. Qarşıdakı dövrdə həmin nöqsanların aradan qaldırılması üçün əməli tədbirlər görülməsinin vacibliyi vurğulanmışdır.

Məruzə ətrafında müzakirələrdə rayon Maliyyə Şöbəsinin müdiri Bəxtiyar Əsgərovun, Statistika İdarəsinin rəisi Vüsal Cəfərovun, Vergilər Şöbəsinin rəisi Məhəmməd İbadovun çıxışları olmuşdur.

* * *

*Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində də dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi və 2014-cü ilin birinci yarısının yekunları ilə bağlı yığıncaq keçirilmişdir.*

Yığıncağı müəssisənin direktoru Behruz Əzimov açaraq məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, 2014-cü ilin ilk 6 ayı ərzində muxtar respublika əhalisinin, idarə, müəssisə və təşkilatların neft və maye qaz məhsullarına olan tələbatını təmin etmək məqsədilə Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi bir sıra məqsədyönlü tədbirlər həyata keçirmiş, Bakı Neft Bazası ilə 36 min ton A-92, 7000 ton A-95, 500 ton A-80 benzin, 90 min ton dizel yanacağı, 36 min ton bitum, 11 min ton mazut, 1300 ton müxtəlif yağlar, 5000 ton maye qaz alınması üçün müqavilə bağlanılmışdır. 2014-cü ilin ilk 6 ayı ərzində adıçəkilən bazadan 12 min 918,5 ton A-92, 1432,9 ton A-95, 13 min 341,2 ton dizel yanacağı, 4554,4 ton bitum, 3982,6 ton mazut, 116 ton müxtəlif yağlar, 93,3 ton maye qaz gətirilmişdir.



Müəssisə 2014-cü ilin ilk 6 ayında ümumi dövriyyəsi 25 milyon 405 min 700 manat olan 37 min 145,8 ton müxtəlif növ neft məhsulları satmışdır ki, bu da 15 min 425,4 ton avtobenzin, 17 min 373,2 ton dizel yanacağı, 4201,3 ton bitum, 29,9 ton maye qaz, 116,1 ton müxtəlif növ yağlardan ibarət olmuşdur. Birinci yarımil ərzində müəssisə satışdan 156,3 min manat mənfəət əldə etmişdir.

2014-cü il iyul ayının 1-nə müəssisənin anbarlarında 2186,3 ton A-92, 2,2 ton A-95 benzin, 2495,3 ton dizel yanacağı, 3982,6 ton mazut, 353,1 ton bitum, 44,9 ton maye qaz ehtiyatı vardır.

Məruzə ətrafında müzakirələrdə çıxış edən müəssisənin neft anbarının müdiri Mirmehdi Seyidov, maye qaz anbarının müdiri Kazım Rzayev və başqaları qarşıda duran vəzifələrdən danışmışlar.

**Xəbərlər şöbəsi**

## Dünya kuboku uğrunda yarışa yekun vurulub

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində təşkil edilən və Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunan ağır atletika üzrə veteranlar arasında dünya kuboku uğrunda yarışa dünən yekun vurulub. 170 idmançının iştirak etdiyi yarışın son günü maraqlı çıxışlarla yadda qalıb.

Yarışın son günü Azərbaycan ağır atletləri üçün uğurlu olub. Belə ki, Namiq Ağayev öz çəki dərəcəsində bütün rəqiblərini qabaqlayıb və dünya kubokunun sahibi olub. Onun uğurunu Samir Qeyisov da təkrarlayıb. Digər iki idmançımız – Samir Hüseynov və İlham Hüseynov gümüş medalla kifayətlənməli olublar.

Müxtəlif çəki və yaş dərəcələrində Ehsan Bayati, Fardin Yavari, Cavad Samyematin, Mehdi Nasarpur, Mehram Hatami (İran), Oleq Starikov, Vladimir Suşçak (Rusiya) yarışın qalibi adını qazanıblar.

## Veteran idmançılar Naxçıvandan xoş təəssüratlarla qayıdıblar

5-8 iyul tarixlərində Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunmuş ağır atletika üzrə veteranlar arasında dünya kuboku uğrunda yarış keçirilib. Yarışda 23 ölkənin 170 idmançısı mübarizə aparıb. Naxçıvanın qədim tarixi abidələri, muzeyləri, gəzməli və görməli yerləri qonaq idmançılarda xoş təəssüratlar yaradıb. Həmsöhbət olduğumuz veteran idmançılar bunu bir daha təsdiq etdilər:



***Lev NİKİFOROV (Rusiya):*** – Uzun illərdir, bu idman növü ilə məşğulam və dünyanın bir çox şəhərində olmuşam. Naxçıvan digərlərindən çox fərqlidir. İlk olaraq onu qeyd edim ki, şəhəriniz çox təmizdir. Bura gəldiyim gün şəhərdə gəzmək imkanım oldu. Gördüyüm yerlər məndə xoş təəssürat yaratdı. Yarışın təşkilatçılığına gəlincə, hər şey əladır. Biz veteran idmançılar bu idman növü üzrə keçirilən yarışlardan xüsusi zövq alırıq, istirahət edirik. Bu işdə əməyi keçən hər kəsə minnətdarlığımı bildirirəm. Onlar bizim istirahətimizi çox yaxşı təmin ediblər. Bir də Naxçıvanda yenidən çempion olmağım sevindiricidir.



***Natiq AĞAYEV (Veteran Ağır Atletlər İctimai Birliyinin prezidenti, təşkilatçı):*** – Bu yarışın təşkil edilməsində bizə dəstək olan muxtar respublika rəhbərinə minnətdarlığımızı bildiririk. Burda idmançıların qarşılanması çox yüksək səviyyədə oldu. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi idmançılar üçün ekskursiya təşkil etdi. Bütün qonaqlar yarışın gedişatından, təşkilatçılıqdan və yarışa ev sahibliyi edən Naxçıvandan çox razıdırlar. Bu artıq Azərbaycanda təşkil edilən ikinci böyük yarışdır. Analoji turnir 2 il öncə Lənkəranda keçirilmişdi. Hazırda turnirdə çıxış edən idmançıların hər biri fərqli sahənin insanlarıdır. Onların arasında həkim, polis, bənna, sürücü kimi fəaliyyət göstərənlər var. Veteran idmançılar Naxçıvanı gəziblər və müzakirələrindən də məlum olur ki, buranı çox bəyəniblər.



***Kurt RUZENBERGER (Almaniya):*** – Təşkilatçılıq yüksək səviyyədədir. Hər şey sanki bizim istəyimizlə hazırlanıb. Uzun illərdir, bu idmanla məşğulam. Atam və babam da peşəkar idmançılar olublar. Turnirin, deyəsən, ən yaşlı idmançısı elə mənəm (Kurt Ruzenberger turnirin ən yaşlı idmançısı kimi tarixə düşdü: 86 yaş – C.M.). Buna baxmayaraq, mübarizə aparmağı sevirəm. Şəhəriniz çox təmizdir. Belə şəhərlərə mən çox nadir hallarda rast gəlirəm. Avropanın bir çox inkişaf etmiş şəhərindən səliqəlidir. Məni daha çox valeh edən isə buranın sakitliyidir. Biz veteranlar üçün əsas olan da elə sakitçilikdir.



***Nina MAQOMEDOVA (Yunanıstan):*** – İlk olaraq, yarışı bu cür təşkil edənlərə, bizi burda mükəmməl qarşılayanlara minnətdarlığımı bildirirəm. Hər şey fərqlidir – insanları, həyat tərzi, küçələri. Elə bizə münasibət də çox fərqlidir. Burda azarkeşlərin hər zaman bizi dəstəkləməsi məni çox sevindirdi. Etiraf edim ki, hər zaman səhnəyə çıxarkən onların alqışları məni ruhlandırırdı və çempion olmağımda tamaşaçıların da rolu böyükdür.



***Yan HİNRİKSEN (İsveç):*** – Yarış iştirakçıları təşkilatçılıqla bağlı mənimlə eyni fikirdə olarlar: hər şey əladır, mükəmməldir. İştirakçılar sanki burda istirahət edirlər, onlar üçün hər bir şərait yaradılıb. İlk dəfədir, Naxçıvanda oluram və fərqli bir yerə gəldiyimi düşünürəm. Şəhəriniz təmiz olduğu qədər də gözəldir. Kaş bizim də belə sakit və gözəl şəhərdə yaşamaq şansımız olardı.



***Sabina RZAYEVA (Azərbaycan):*** – Yarış əla təşkil olunub. Bura gələn qonaqlar da bizimlə söhbətində bu fikirdə olduqlarını deyirlər. Hər gün azərbaycanlı idmançılar mübarizə apardığına görə onların çıxışlarına baxırdıq və buna görə şəhəri çox gəzmək imkanımız olmayıb. Yarışdan sonra axşamlar az da olsa, gəzintiyə çıxırdıq. Naxçıvanın təmizliyi, gözəlliyi bizi çox heyrətləndirdi. Yarışı belə mükəmməl təşkil etdiklərinə, bizi burda gözəl qarşıladıqlarına görə aidiyyəti qurumlara minnətdarlığımızı bildiririk.

✍ **Ceyhun MƏMMƏDOV**

## Muxtar respublikada sərnişin daşınmasını yerinə yetirən sürücülərin iştirakı ilə seminar-müşavirə keçirilmişdir

***Tədbirdə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin Nəqliyyatda əlaqələndirmə və lisenziyalaşdırma şöbəsinin müdiri Ramin Qəhrəmanov çıxış etmişdir.***

Bildirilmişdir ki, muxtar respublikamızda digər sahələrlə yanaşı, avtomobil nəqliyyatı sahəsində də əsaslı islahatlar aparılmış və müsbət nəticələr əldə edilmişdir. Muxtar respublika rəhbərinin bu sahəyə diqqət və qayğısının nəticəsidir ki, ən ucqar dağ kəndlərinə belə, rahat asfalt yollar salınır, rayon mərkəzlərində yeni avtovağzallar tikilib istifadəyə verilir. Yol-nəqliyyat infrastrukturunun yenilənməsi, bu sahədə həyata keçirilən müxtəlif tədbirlər avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmalarının müasir tələblərə uyğun yerinə yetirilməsi zərurətini yaradır. Qeyd olunmuşdur ki, muxtar respublika ərazisində sərnişin və yük daşınmasına görə razılıq (lisenziya) qanunvericilikdə nəzərdə tutulmuş qaydada Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi tərəfindən 5 il müddətinə verilir.

Şöbə müdirinin sözlərinə görə, avtomobil nəqliyyatı ilə sərnişin daşınmasını yerinə yetirən sürücülərin intizam qaydalarına necə əməl etməsini yoxlamaq məqsədilə Naxçıvan şəhərində bir sıra reydlər keçirilmiş, qanun pozuntusuna yol verən sürücülər saxlanılaraq cəzalandırılmışlar. Vergi borcunu ödəməyən, qanunsuz taksi fəaliyyəti ilə məşğul olan sürücülərə qeyri-qanuni sərnişindaşıma ilə məşğul olmamaq haqqında xəbərdarlıqlar edilmiş, tabe olmayan sürücülər Dövlət Yol Polisi əməkdaşları ilə birlikdə keçirilən reydlərdə saxlanılaraq cəzalandırılmışlar. Vurğulanmışdır ki, Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi tərəfindən cari ilin ilk 6 ayında 106 ədədi yük, 45 ədədi taksi, 36 ədədi avtobusla sərnişindaşıma fəaliyyəti olmaqla, cəmi 254 ədəd xüsusi razılıq (lisenziya), sərnişin və yük daşıyan 6 min 689 ədəd avtonəqliyyat vasitələrinə fərqlənmə nişanı, onlardan 63 ədədinə isə xüsusi fərqlənmə nişanı verilmişdir.

Nazirliyin Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsinin müdiri Elxan Novruzov bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmasını həyata keçirən sürücülərin intizam qaydalarına uyğun fəaliyyət göstərmələri mütəmadi olaraq nəzarətdə saxlanılır. Bu qaydalara əsasən, sərnişindaşıma hüququ müvafiq ixtisas tələblərinə və sağlamlıq vəziyyəti müvafiq normalara cavab verən fiziki şəxslərə verilir. Nəqliyyat vasitəsini idarəetmə hüququ müvafiq normativ-hüquqi aktlarla müəyyən olunmuş qaydada və formada verilmiş sənədlərlə təsdiq edilir. İctimai nəqliyyatda sərnişin daşınması ilə məşğul olan hər bir sürücünün idarə etdiyi avtomaşının fəaliyyət göstərməsi üçün xüsusi razılığın (lisenziyanın) verilməsini təsdiq edən sənəd olmalı, sürücülük rekvizitləri qanunvericiliyin tələblərinə cavab verməlidir. Qeyd edilmişdir ki, 2014-cü ilin birinci yarısında sərnişin və yük daşıyan fiziki və hüquqi şəxslərin fəaliyyətinə nəzarət məqsədilə müxtəlif reydlər aparılmış, nəticədə, qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən 399 avtonəqliyyat vasitəsi sahibi aşkar olunmuşdur. Onlardan 191 nəfər lisenziyaya cəlb edilmiş, intizama tabe olmayan 208 nəfər haqqında cəza tədbiri görülməklə üçün müvafiq orqanlara məlumatlar göndərilmişdir.

"Yol-nəqliyyat kompleksinin yenidən qurulması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini vermiş, şəhər infrastrukturunun mühüm sahəsi sayılan sərnişindaşıma xidmətinin günün tələbləri səviyyəsində qurulması üçün hər cür şərait yaradılmışdır", – deyən Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin rəis əvəzi İlkin Məmmədov qeyd etdi ki, kollektiv sərnişinlərin vaxtında və təhlükəsiz mənzil başına çatdırılması üçün bundan sonra da mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərəcəkdir.

Sonda sərnişindaşıma ilə məşğul olan sürücülərin sualları cavablandırılmışdır.

✍ **Kərəm HƏSƏNOV**

### *İstedadlar sorağında*

## Xalq teatrının balaca aktyoru

***2009-cu ildən fəaliyyət göstərən Babək Rayon Xalq Teatrı daim repertuarını zənginləşdirməyə çalışır, günümüzlə səsləşən əsərlərə müraciət edir, rayonun mədəni həyatında fəal iştirakı ilə diqqəti çəkir. Ötən dövr ərzində teatr bir sıra maraqlı səhnə əsərlərinə müraciət etmiş, bölgə sakinlərinin asudə vaxtlarının səmərəli keçməsinə öz töhfəsini vermişdir.***

Kollektivin bu günlərdə Xalq şairi Bəxtiyar Vahabzadənin "İkinci səs" əsəri əsasında səhnələşdirdiyi tamaşa teatrsevərlər tərəfindən rəğbətlə qarşılanmışdır. Tamaşada mənəvi təmizlik, ailəyə sədaqət, vəzifə borcuna məsuliyyət, insan ləyaqətinin uca tutulması kimi dəyərlər aşılanır. Cəmiyyətin sağlam təməllər üzərində inkişafında mühüm amillər olan bu dəyərlərin tamaşaçılara təqdimində aktyorlar öz imkanlarından maksimum istifadə etməyə səy göstərmişlər. Ancaq aktyorlar sırasında bir nəfər var ki, ən çox diqqəti o çəkirdi. 11 yaşlı bu balaca qız rolunu o qədər məharətlə ifa edirdi ki, heyrətlənməmək mümkün deyildi. Tamaşadan sonra hamı bu balaca qızla maraqlanırdı, onu təbrik edirdi. Bu istedadlı yeni yetməmizi oxucularımızla daha yaxından tanış etmək üçün onu redaksiyamıza dəvət etdik.



Öyrəndik ki, tamaşadakı məktəbli İradə obrazını canlandırmaqla hamının sevimlisinə çevrilən bu qızın adı Mələk, soyadı isə Aslanovadır. 2003-cü ildə Babək rayonunun Qoşadizə kəndində anadan olub. Hazırda həmin kənd məktəbinin VI sinif şagirdidir. Dərslərini əla qiymətlərlə oxumaqla yanaşı, məktəbin bütün mədəni tədbirlərində də iştirak edir.

Qeyd edək ki, Mələk ilk dəfədir, tamaşada oynamasına baxmayaraq, heç bir çətinlik çəkməyib. Onun dediklərindən:

– Anam tamaşalarda rol aldığı üçün xalq teatrının bütün tamaşalarını izləmişəm. Çox istəyirdim ki, mən hər hansı bir tamaşada rol alım. Düzdür, insanlar qarşısında şeirlər söyləmişəm, ancaq ilk dəfə idi ki, bu qədər insan qarşısına çıxırdım. Rolumu ifa edənə qədər zala heç baxmadım. Sonda alqışları eşidəndə çox sevindim.

Babək Rayon Xalq Teatrının rejissoru Yusif Əliyev Mələk haqqında çox xoş sözlər söylədi:

– Xalq teatrının nəzdində məktəbli uşaqlardan ibarət "Tumurcuq" adlı dram dərnəyi yaratmışıq. Burada uşaqlar kiçik səhnəciklər hazırlayırlar. Mələk də bu dram dərnəyinin üzvüdür. Ona tapşırılan rolları çox ustalıqla ifa edirdi. Tamaşanın stolüstü məşqlərinə başlayanda "İkinci səs" tamaşasında İradə rolunu Mələyə həvalə etdik. O, az yaşı olmasına baxmayaraq, rolu yaşayırmış kimi oynadı. Mələk artıq xalq teatrının bir üzvüdür. Bundan sonra da tamaşalarımızda rol alacaq.

Görkəmli rus teatrşünası Stanislavski yazırdı ki, teatr asılqandan başlayır. Bu fikrin həqiqət var. Professional teatrların təməlində dram dərnəkləri və xalq teatrları dayanır. Babək Rayon Xalq Teatrı Mələk kimi neçə-neçə istedadlı gənclər yetişdirəcək. Heç şübhə yoxdur ki, Mələk gələcəkdə Naxçıvan peşəkar teatrında özünəməxsus yer tutacaq. Bu yolda ona uğurlar arzulayırıq.

✍ **Sara ƏZİMOVA**

## Fövqəladə hallar uşaqların gözü ilə

Naxçıvan şəhərindəki 5 nömrəli uşaq bağçasında "Fövqəladə hallar uşaqların gözü ilə" mövzusunda əməli məşğələ keçilib. Tədbirin keçirilməsində əsas məqsəd bu məktəbəqədər tərbiyə müəssisəsində çalışan tərbiyəçilərə, dayələrə, eləcə də uşaqlara baş verə biləcək fövqəladə hallar zamanı davranış və fəaliyyət qaydalarını öyrətməkdən ibarət olub.

Tədbirin proqramına uyğun olaraq, uşaqlar fövqəladə hallarla bağlı müxtəlif mövzularda şeirlər söyləyib və səhnəciklər təqdim ediblər. Sonra süni yaradılmış zəlzələ ocağında uşaqlar zəlzələ zamanı davranış və fəaliyyət qaydalarını göstəriblər. Bununla yanaşı, odla bağlı səhnəcik də canlandırılıb, yanğınsöndürmə vasitələrindən istifadə qaydaları izah edilib.

Sonda Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin mülki müdafiə kursunun elmi-metodik işlər üzrə baş müəllimi, baş leytenant Şərif Əsədov çıxış edərək belə məşğələlərin keçilməsinin əhəmiyyətindən danışıb.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

İmanzadə Rasim Ələsgər oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Müəllimlər İnstitutunun rektorluğu və professor-müəllim heyəti iş yoldaşları Əfruz Mahmudovaya, atası
**ƏLİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimlərindən Ramazan Abbasov, İsmət İmanova, Xalidə Bağırova, Mustafa Fətullayev, Sevda Cəfərova iş yoldaşları Əli Möhbalıyevə, anası
**CƏMİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov və şuranın üzvləri Elman Məmmədova, anası
**PÜRÜZƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Oğuz səsi" qəzetinin kollektivi Elman Məmmədova, anası
**PÜRÜZƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 591